# Zəngilan əməliyyatı: Hərbi taktika ilə texnoloji üstünlüyün kəsişməsi

*(əvvəli ötən sayımızda)*

**2020-ci il oktyabrın 20-də Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev tərəfindən elan olunan daha bir Qələbə xəbəri - Zəngilan şəhərinin azad edilməsi - Vətən müharibəsinin gedişinə mühüm strateji təsir göstərmişdir. Aparılan döyüş əməliyyatları nəticəsində Azərbaycan Ordusu Zəngilan şəhərini, rayonun 4 qəsəbəsini və 49 kəndini işğaldan azad etmişdir. Bu hərbi uğur Zəngilan istiqamətində operativ üstünlüyün tam şəkildə Azərbaycanın nəzarətinə keçdiyini təsdiqləmişdir.**

Planlı və mərhələli şəkildə həyata keçirilən döyüş əməliyyatları nəticəsində cəbhənin müxtəlif istiqamətlərində düşmənin canlı qüvvəsinə və hərbi texnikasına ciddi itkilər yetirilmişdir. Aparılan zərbə əməliyyatları nəticəsində qarşı tərəfin 2 ədəd T-72 tankı, 4 ədəd BM-21 "Qrad" YARS reaktiv yaylım sistem qurğusu, 1 ədəd D-30 tipli haubitsa topu, həmçinin 5 ədəd avtomobil texnikası məhv edilmişdir.

Artilleriya bölmələrimizin dəqiq atəş zərbələri Ermənistan silahlı qüvvələrinin 1-ci motoatıcı alayının müdafiə sahəsində şəxsi heyət arasında çoxsaylı itkilərin yaranmasına səbəb olmuşdur. Aldığı ağır zərbələr nəticəsində alayın 1-ci motoatıcı taborunun şəxsi heyəti və döyüş texnikası fəaliyyət qabiliyyətini tam itirmişdir. Eyni zamanda, 2-ci motoatıcı alayın müdafiə sahəsində yerləşən düşmən bölməsi döyüş mövqelərini tərk edərək geri çəkilməyə məcbur olmuşdur.

Zəngilan əməliyyatının analizi göstərir ki, Azərbaycan Ordusu şəbəkə-mərkəzli müharibə modelini yüksək səviyyədə tətbiq etmişdir. Bu modeldə hərbi qərarlar real vaxt məlumatlarına əsaslanır və bütün döyüş vasitələri vahid informasiya sahəsində fəaliyyət göstərir. Bu konsepsiya aşağıdakı üstünlükləri təmin edir:

- *operativ məlumatların dərhal komandanlığa çatdırılması,*
- *hədəflərin dərhal zərərsizləşdirilməsi,*
- *hücum və müdafiə fəaliyyətlərinin koordinasiyası.*

Azərbaycan Ordusunun tətbiq etdiyi texnologiyalar düşmənin klassik müdafiə quruluşlarını tamamilə mənasız etmişdi. Bu üstünlük asimmetrik müharibə anlayışını bir daha təsdiqlədi. Qeyd edək ki, "asimmetrik müharibə" - müharibə edən tərəflər arasında güc balansının olmaması və ya onların hərbi texnologiya baxımından çox fərqlənməsi zamanı ortaya çıxır.

Hərbi ekspertlərin qiymətləndirməsinə görə, Zəngilanın azad olunması ilə cənub cinahında əldə olunan irəliləyiş nəticəsində Azərbaycan Ordusu Araz çayı boyunca nəzarəti bərpa etmiş, düşmən ordusunun cənub istiqamətindəki manevr imkanlarını əhəmiyyətli dərəcədə məhdudlaşdırmış, Ermənistanla dövlət sərhədinin mühüm hissəsində suverenlik tam təmin olunmuş, bununla da Laçın-Qubadlı istiqamətində yeni əməliyyatların başlanmasına strateji əsas yaranmışdır. Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin çevik və dəqiq qərarvermə strategiyası bu əməliyyatın müvəffəqiyyətində əsas rol oynamışdır.

Ağbənd qəsəbəsinin və Vejnəli yüksəkliyinin düşmən qüvvələrindən təmizlənməsi Araz çayı boyunca Azərbaycan-İran dövlət sərhədinin 132 kilometrlik hissəsində suveren nəzarətin bərpasına gətirib çıxarmışdır. Sərhəd xəttinə tam nəzarət edilməsindən sonra Ermənistanın regiona hərbi yük daşımaları da faktiki olaraq dayanmışdır.

Zəngilanın azad olunması Qarabağ məsələsinin həllində həlledici mərhələlərdən biri kimi qiymətləndirilir. Bartaz, Sığırt, Şükürataz və digər bir neçə mühüm yüksəkliklərin ələ keçirilməsi ordumuzun əməliyyat üstünlüyünü artırmış, bölgədə geniş müşahidə və nəzarət imkanları yaratmış, bununla da Ermənistanın cənub cinahının müdafiə sistemi tam şəkildə çökmüşdür.

Rayonunun azad olunması həm hərbi, həm siyasi, həm də iqtisadi baxımdan əhəmiyyətli hadisə olaraq Azərbaycan cəmiyyətində böyük ruh yüksəkliyi yaratmışdır.

Hərbi-strateji baxımdan Zəngilan əməliyyatı İkinci Qarabağ müharibəsində operativ üstünlüyün son mərhələyə keçidini şərtləndirən əsas amillərdən biri hesab olunur. Ərazinin azad edilməsi düşmənin Qarabağdakı təchizat xətlərini kəsmiş, Ermənistan ordusunun bu istiqamətdəki birləşmələri təcrid vəziyyətinə düşmüşdür. Bu nəticələr döyüş əməliyyatlarının ümumi dinamikasında Azərbaycan Ordusunun üstünlüyünü daha da gücləndirmişdir.



Rayonun azad olunması Ermənistan cəmiyyətində ciddi psixoloji təsir yaratmışdır. Qısa müddət ərzində işğalçı tərəfin "keçilməz müdafiə xətti" kimi təqdim etdiyi sistemin dağıdılması erməni hərbi-siyasi dairələrində dərin böhran və ruh düşkünlüyü yaratmışdır. Bu əməliyyat bir daha nümayiş etdirmişdir ki, Azərbaycan əsgəri yüksək mənəvi hazırlıq, milli iradə və vətənpərvərlik ruhu ilə döyüşür, xalq-dövlət-ordu birliyi isə müharibənin ən həlledici amilini təşkil edir.

Zəngilanın azad olunması Azərbaycanın beynəlxalq aləmdə artan nüfuzunun və ədalətli mövqeyinin daha bir sübutu kimi də qiymətləndirilir. Bu hadisə göstərdi ki, Azərbaycan öz ərazi bütövlüyünü beynəlxalq hüquqa tam uyğun şəkildə bərpa edir. Prezident İlham Əliyev oktyabrın 20-də xalqa müraciətində Zəngilanın işğaldan azad olunduğunu elan edərək bu uğuru "tarixi qələbə" və "haqq işinin nəticəsi" kimi xarakterizə etmişdir.

Bu əməliyyat regionda yeni geosiyasi reallığın formalaşmasının da başlanğıc nöqtəsi olmuşdur. Rayonun azad edilməsi yalnız Qarabağın tarixi torpaqlarının suverenliyinin bərpası baxımından deyil, həm də Zəngəzur dəhlizinin formalaşması üçün strateji əhəmiyyət daşıyır. Bu əməliyyat regionda yeni nəqliyyat-kommunikasiya xəttinin reallaşmasına şərait yaradacaq geosiyasi imkanların meydana çıxmasını sürətləndirmişdir.

Nəzərə alsaq ki, Zəngilan rayonunu Naxçıvan Muxtar Respublikasından ayıran məsafə cəmi 40 kilometrdir və bu məsafə Zəngəzur dəhlizinin bərpası baxımından xüsusi strateji əhəmiyyət kəsb edir, dəhlizin açılması uzun illər blokadada qalan Naxçıvanın regionla birbaşa quru əlaqəsinin bərpasını təmin etməklə yanaşı, həm də tarixi Zəngəzur ərazisinin funksional şəkildə yenidən birləşməsinə imkan verəcəkdir. Bu təşəbbüs həm iqtisadi, həm nəqliyyat-kommunikasiya, həm də geosiyasi baxımdan yeni imkanlar yaradacaqdır. Bu həmçinin türk dünyasını birləşdirən Şərq-Qərb nəqliyyat marşrutlarının gerçəkləşməsi üçün əlverişli geopolitik şərait yaradacaqdır. Bu əlaqələrin bərpası isə Azərbaycanın regiondakı üstün mövqeyini möhkəmləndirən növbəti tarixi nailiyyət kimi qiymətləndirilir.

Hazırda işğaldan azad olunmuş digər ərazilərdə olduğu kimi, Zəngilan şəhəri və rayonun kəndlərində də genişmiqyaslı bərpa və inkişaf proqramları həyata keçirilir. Aparılan quruculuq tədbirlərinin məqsədi Zəngilanın yaxın illərdə Azərbaycanın ən müasir şəhərlərindən birinə çevrilməsidir. Bu rayon eyni zamanda Böyük Qayıdış prosesinin ilkin mərhələsinin həyata keçirildiyi məkandır. Torpaqların azad edilməsindən sonra inşa olunan ilk yeni yaşayış kompleksi məhz Zəngilan ərazisində yerləşdirilmişdir.

2021-ci il aprelin 26-da Prezident İlham Əliyevin Ağalı kəndinə səfəri zamanı 1-ci, 2-ci və 3-cü Ağalı kəndlərini əhatə edən birinci "Ağıllı kənd" layihəsinin təməli qoyulmuş və bununla Zəngilan da daxil olmaqla azad edilmiş ərazilərin məskunlaşdırılması istiqamətində yeni mərhələ başlanmışdır. Həmin gün Zəngilan Beynəlxalq Hava Limanının və Zəngilan-Horadiz avtomobil yolunun təməlqoyma mərasimləri də keçirilmişdir ki, bu da rayonun nəqliyyat-kommunikasiya potensialının bərpasında mühüm addım hesab olunur.

Zəngilan coğrafi-inzibati mövqeyinə görə Azərbaycanın nəqliyyat-tranzit siyasətində xüsusi əhəmiyyətə malikdir. 2021-ci il oktyabrın 26-da təməli qoyulan Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd avtomobil yolu Zəngəzur dəhlizinin əsas qovşaqlarından birini təşkil edir və regionda yeni siyasi-iqtisadi reallığın formalaşmasına xidmət edir.

2022-ci il mayın 27-də Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Zəngilan rayonunda "Ağıllı kənd" layihəsinin birinci mərhələsinin açılışında iştirak etmişlər. Zəngilan azad olunmuş ərazilər arasında keçmiş məcburi köçkünlər üçün ilk yaşayış kompleksinin - Ağalı "ağıllı kənd"inin - inşa edilərək istifadəyə verildiyi ilk bölgə olmuşdur. Həmin il iyulun 19-dan etibarən, Ağalı kəndinə əhalinin köçürülməsi başlamış və bununla da 30 ildən sonra azad edilmiş torpaqlarda ilk məskunlaşma həyata keçirilmişdir.

Zəngilan uğrunda döyüş yalnız hərbi-strateji uğur deyil, həm də Azərbaycan əsgərinin fədakarlıq iradəsinin parlaq təzahürü kimi yaddaşlara həkk olundu. Vətən torpaqlarının azadlığı uğrunda sinəsini sipər edən və bu yolda şəhidlik zirvəsinə ucalan igidlərimizin xatirəsi qarşısında dərin ehtiramla baş əyir, onların ruhuna Allahdan rəhmət diləyirik. Qəhrəman şəhidlərimizin göstərdiyi misilsiz şücaət xalqımızın yaddaşında daim yaşayır və milli varlığımızın əbədi mənəvi dayağına çevrilir.

**_Gülşən HÜSEYNOVA_**
**_Azərbaycan Hərb Tarixi Muzeyinin əməkdaşı_**